# KAMANÇANIN YARANMASI MİLLİ MUĞAM İFAÇILIQ SƏNƏTİNDƏ ONUN ƏHƏMİYYƏTLİYİ VƏ İNKİŞAFINA DAİR BƏZİ MƏSƏLƏLƏR

**Ardı. Əvvəli №31**

Müsəlman musiqi elminin intibahında müstəsna rol oynamış bir çox nümayəndələri ilə yanaşı görkəmli əsərlərinin müəllifi hesab olunan — yeni musiqi sisteminin yaradıcısı, Urma şəhərində 1216-cı ildə anadan olmuş Səfiəddin Urməvinin (tam adı Səfiəddin Əbdülmömin ibn Yusif ibn Fahir əl-Urməvi) yaradıcılıq fəaliyyətini xüsusən qeyd etmək lazımdır.

Alimlər tərəfindən Səfiəddin Urməvinin yaradıcılığı ilə bağlı aparılan araşdırmalarda qeyd olunur ki, Səfiəddin Urməvi musiqi haqqında ərəb dilində yazılmış 2 ölməz sənət əsəri yaratmışdır: «Kitab əl-Ədvar» (ətraf muhit haqqında kitab); «Ər-risalə əş-Şərəfiyyə finisbət-talifan» (kompozisiyanın janrı haqqında Şərəfiyyə traktatı).

Onun bu və digər əsərlərində qədim yunan və fars musiqi nəzəriyyəsinin ənənələri tədqiq olunub ümumiləşdirməklə, ərəb musiqisinin nəzəri fikrinin çoxəsrlik nailiyyətləri yekunlaşdırılmışdır.

Müsəlman mədəniyyətində Səfiəddin Urməvinin apardığı inqlabi islahatlar nəticəsində onun tərəfindən notlaşdırılmış yazılarla əsas hesab olunan 12 ladın (Üşşaq, Nəva, Busəlik, Rast, Əraq, İsfahan, Büzürk, Zirəfkənd, Zəngulə, Rəhavi, Hüseyni və Hicaz) və ikinci dərəcəli, farsca «əvaz» adlanan 6 ladın (Şahnaz, Mayə, Səlmək, Novruz, Gərdaniyə və Gəveşt) təsvirini vermişdir.

Bu ladlar əsasında yeni musiqi nəzəriyyəsinin sistemləşdirilmiş hala gətirilməsi təmin edilmiş və müvafiq olaraq öz növbəsində musiqi alətlərinin sayının artırması, onların dəyişdirilməsi və təkmilləşdirilməsi ilə nəticələnmişdir.

Səfiəddin Urməvi notlaşdırılmış yazılarını yaradan ilk ərəbdilli Azərbaycan bəstəkarı olmuşdur. Notlaşdırılmış yazılar hərflərlə və rəqəmlərlə göstərilmiş, notlu əlifba isə udun ladlarına uyğunlaşdırılmış hərflərdən ibarət idi.

Əfrasiyab Bədəlbəylinin 1964-cü ildə «Elm və həyat» jurnalının 7-ci nömrəsində dərc olunmuş «Not yazısı necə yaranmışdır?» ikinci məqaləsində qeyd edilmişdir ki, «Urməvi ərəb əlifbasının əbcəd hərfləri tərtibinin sırası ilə gələn işarələrlə hər bir səsi ayrı-ayrılıqda qeydə alır. Əbcəd hesabında birinci hərfin (əlif) bir (1) rəqəmini ifadə etdiyini və «lo» hərfinin 36 rəqəminə bərabər olduğunu nəzərdə tutsaq, ud musiqi alətinin hər bir səsinin müəyyən bir hərf ilə qeydə alınmasının mümkün və təbii olduğunu aydın surətdə görərik».

Səfiəddin Urməvi Orta əsr nəzəri elminə ladı işarə edən daur (yəni, dövr, dairə) termini daxil etmiş, Lad nəzəriyyəsində isə, məqam terminini də ilk dəfə işlətmişdir.

Səfiəddin Urməvi təkcə görkəmli musiqi nəzəriyyəçisi, tabulatura — cədvəl şəklində mükəmməl not yazısının yaradıcısı deyil, həm də çox mahir udçalan olmuşdur. Onun 15 fəsildən ibarət məşhur «Kitab əl-Ədvar» («Dairələr kitabı») əsərinin 7-ci fəsli («Ud və onun kökləri») bütövlükdə beşsimli uda həsr olunmuş və bu fəsildə udun sim və pərdələrinin yerləşməsi nümunəsində musiqinin nəzəri və praktiki məsələləri, səsin təbiəti, pərdələr və səsdüzümü sistemi, intervallar, ritmlər, kompozisiyalar, ifaçılıq məharəti nəzərdən keçirilir.

Udun müşayiəti ilə xanəndələrin ifasında muğamların fəlsəfəsini daha dolğun çatdırılması üçün Səfiəddin Urməvi tərəfindən udun təkmilləşdirilməsi və müğənni (və ya müğni), nüzhət kimi musiqi alətlərin icad olunması elmi və tarixi mənbələrdə öz əksini tapmış və o göstərilən elmi traktatlar əsasında haqlı olaraq sözügedən məkanda məşhur «Sistemli məktəbinin» banisi hesab olunmuşdur.

Səfiəddin Urmavin yaradıcılığından bəhrələnən, ondan sonra gələn öz milli musiqi nəzəriyyəsinin müvafiq əsaslarını müəyyən edən bütün ərəb, fars, türk dilli müəllifləri onun nəzəriyyəsinin davamçıları olmuşlar.

Yüz ildən sonra onun musuqi elminin bu janrın təkmilləşdirilməsi və əsas istiqamətlərinin müəyyən olunması üzrə nəzəriyyəsi ilə bağlı tədqiqat işini digər böyük həmyerlimiz — orta əsrlərdə Azərbaycanın məşhur elm və mədəniyyət mərkəzi sayılan Marağa şəhərində 1353-cü ildə anadan olmuş Əbdülqadir Məraği (tam adı Əbdüldülqadir ibn Qeybi əl-Hafiz əl-Marağı) tərəfindən layiqincə davam etdirilmişdir.

Əbdülqədir Marağı musiqi haqqında, əksəriyyəti fars dilində yazılmış, bir çox ölməz sənət əsərlərinin müəllifidir.

Əbdülqədir Marağinin yardıcılığı ilə bağlı Azərbaycanda bir cox taninımış alımlərimiz tərəfindən tədqiqatlar apaşdırımış və müvafiq dəyərli elmi işlər, məqalələr dərc olunmuşdur.

Aparılan araşdırmalar nəticəsində Əbdülqadir Marağayinin yaradıcılığı və onun elmi əsərlərində musiqinin təkmilləşdirilməsi və inkişafı ilə bağlı verilmiş dəyişikliklər və yeniliklər ətraflı tədqiq edilmişdir.

Müəlliflərin fikrinə görə Əbdülqədir Marağı, Fərabi və əsasən Urməvinin nəzəriyyəsindən çıxarışlar etmiş və elmə müasir musiqi təcrübəsinin yeniliklərini gətirmişdi.

Müəyyən olundu ki, Səfiəddin Ürməvinin musiqi irsini davam edən böyük bəstəkar və müsiqişünas, rəssam-xəttat, gözəl xanəndə və musuqiçi, şair — Əbdülqadir Marağı ilk növbədə 12 muğama əsaslanan icad etdiyi «24 şöbə nəzəriyyəsi» ilə Yaxın və Orta Şərq ölkələrində məşhurlaşmış və geniş şöhrət qazanmışdır. Həmçinin, qeyd olunmuşdur ki, Əbdülqadir Marağı öz elmi əsərlərində ilk dəfə olaraq həmin dövrdə mövcud olan musiqi formalarını və janrlarını müfəssəl təsfir etmiş, ritm sistemini zənginləşdirməklə yeni ritmləri yaratmış və Səfiəddin Urməvinin «Lad nəzəriyyəsi»ndə istifadə etdiyi məqam terminini ilk dəfə olaraq lad mənasında işlətmişdir.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas, şərqşünas Sürəyya Ağayevanın «Abdulqadir Maraqi» dərc olunmuş kitabçasında Əbdülqadir Marağayinin yaradıcılıq fəaliyyətinin əsas hissəsi yerli türk-monqol əsilli Cəlayirlər sülaləsinin himayəsi altında — vətəni Azərbaycanda, qalan hissəsi isə Əmir Teymurun hakimiyyəti dövründə Mavərünnəhr və Xorasanda keçirilməsi göstərilir.

Saray məclislərində həmin dövrün ən tanınmış müğənni, musiqiçi və şairləri başına yığan və Sultan Üveys Cəlair gənc istedadlı musiqişünas Əbdülqadir Marağayinin şöhrətini daha da artırmaq məqsədi ilə ona «dövrün yeganəsi, musiqidə tayı-bərabəri olmayan» titulu verməklə Fərman imzalayır.

Azərbaycanda fəaliyyət göstərən Əbdülqadir Marağayi «Əlhani-siqanə» (Otuz nəğmə) adlı, «Bahar ritmi» və «Dövri-şahi» adlı əsərlərini qələmə alır.

Əmir Teymur, Azərbaycana gəlişindən sonra bir çox incəsənət xadimləri Səmərqəndə aparılmış və 1397-ci ildə Əbdülqadir Marağayinin istedadını yüksək qiymətləndirərək öz Fərmanı ilə onu «bütün musiqi bilicilərinin padşahı» adlandırır.

Səmərqənddə yaradıcılıq fəaliyyətini davam etdirərək Əbdülqadir Marağayi yazdığı «Kənz əl-əlhan» («Melodiyalar xəzinəsi») risaləsindəki melodiyaları Səfiəddin Urməvinin hərfi-ədədi sistemi ilə vermişdir.

Əbdülqadir Marağı «Came əl-əlhan» («Melodiyalar məcmusu») adlı nəzəri əsərini 1413-cü ildə başa çatdırdıqdan sonra «Məqasid əl-əlhan» («Melodiyaların məqsədi»), «Lahiyyə» («Musiqi»), «Şərh əl-ədvar» («Dövrələrə şərhlər») və «Fəvaid-i əşərə» («On fayda») adlı əsərlərini yaradır.

Göstərilən əsərlərdə verilmiş musiqi nəzəriyyəsinin inkişafını təmin edən dəyişikliklər və yeniliklər əsasında Əbdülqadir Marağı bir neçə müsiqi alətləri təkmilləşdirmiş və ixtira etmişdir.

Əbdülqadir Marağinin yazdığı musiqi əsərlərində o zaman istifadə olunan və təsvirini tapmış simli alətlər və nəfəs alətlər barədə maraqlı məlumatlar verilmişdir.

Belə ki, Səadət Abdullayevanın «Azərbaycan xalq çalğı alətləri» monoqrafiyasında Əbdülqadir Marağinin əsərlərində təsvir etdiyi kamanlı alətlər (macrurrat) barədə məlumat verilir:

«Kamança hindqozunun (kokos) qabığından və ya içi oyulmuş ağacdan hazırlanırdı. Alətin 2 simi at quyruğu tüklərindən və ya yaxşı səslənməni tə`min edən ipək saplardan düzəldilirdi. Gövdənin üstünə öküz ürəyinin pərdəsi çəkilirdi. Simlər adətən kvarta nisbətində köklənirdi. İfa olunan melodiyadan asılı olaraq, digər köklərdən də istifadə olunurdu. Kamançanın başqa növü — ahsanvallaz də mövcud idi....

Nay-i tənbur zahirən şirvan və ya türk tənburuna oxşayırdı, lakin onlardan fərqli olaraq kamanın vasitəsilə səsləndirilirdi. Alət ney səsini xatırladan səs çıxarırdı».

Müəllifin fikrincə «Əbdülqadir Marağinin təsivr etdiyi bütün musiqi alətlərinin Azərbaycan ərazisində istifadə olunmasını inamla söyləmək çətin olsada, «onların adlarını (məsələn, Şirvan tənburu), zəngin poetik irsi və digər mənbələri nəzərə alsaq, deyə bilərik ki, onun dövründə Azərbaycanda ud, şeştay, tanbur, rübab, nüzha, çang, qopuz, qanun, kamança, nay, ney, zurna, balaban, nafir, karanay, nay-i xiyk, musiqar və ar?an geniş yayılmışdı».

Monoqrafiyada Səadət Abdullayeva tərəfindən bir çox mənbələrə istinad etməklə sözügedən musiqi alətlərinin, xüsusən də kamançanın XIV əsrdən başlayaraq Azərbaycan ərazisində istifadə olunması və geniş yayılması barədə aşağıdakı ətraflı məlumatlar verilmişdir:

...Venesiyanın 1474-1478-cü illərdə Ağqoyunlu dövlətində nümayəndəsi diplomat və səyyah İosafat Barbaro çang, ud, kamança, ney və sinc alətlərində məharətli çalğı nın şahidi olmuşdur...

...II Şah İsmayılın (1533-1577) hakimiyyəti dövründə kamança, çang, tanbur və çartara böyük marağ var idi...

...Tarixçi, şair və xəttat İsgəndər Münşi (1560/61-1634) «Tarix-i aləm aray-i Abbasi» (Dünyanı bəzəyan Abbasın tarixi) əsərində ən geniş yayılmış çalğı alətlərin — sazın, kamançanın, tanburun, udun, karanayın və dafin adla rını çəkir. O, dövrünün məşhur xanəndələri ilə yanaşı, Mirzə Məhəmməd Kamançai və Sultan Məhəmməd Çəngi kimi çalğıçıların da adlarını xatırlayır.

Kamançanın həmin dövrdə geniş yayılması barədə Məhəmməd Füzulinin «Səhhət və Mərəz» əsərində də qeyd olunur. «Səhhət Əqldən kömək istədi. Dördüncü dəfə Əql Səhhətinköməyinə qalxıb Pəhrizə fərman verdi ki, Səfranın fayda büsatını yığışdırsın və ona müxalifət yolunu tutsun. Zaiqə şəkər kimi şeylərə, Samiə sızlayan kamançaya rəğbət etməsin. Basirəni xalis qızıla baxmağa və Şamməni tər çiçək-gül qoxulamağa qoymasın».

Həmin dövrdə mədəniyyətimizin inkişafında kamançanın geniş yayılması ilə mühüm mövqenin tutması və əhəmiyyətliliyinin artması aşağıdakı amillərin təsiri ilə əlaqələndirmək lazımdır:

1. XIV əsrdən başlayaraq, ana dilimizdə Azərbaycan muğamının yaranması üçün əsas şərtlərdən biri hesab olunan poeziyamızda əruz vəznində yazan şairlərin ədəbi fəaliyyəti

Azərbaycan poeziyasında əruz vəznində yazan şairlərin ədəbi fəaliyyəti poeziyamızın inkişafında, ədəbi dilimizin formalaşmasında mühüm rol oynamış və bununla da ana dilimizdə Azərbaycan muğamının yaranması üçün əsas şərtlərdən biri hesab olmuşdur.

Səlcuq boyundan olan Anadoluda, Azərbaycanda, İran və İraqda sülalələr turkman əsilli hökmdarlar tərəfindən qurulmuş dövlətlərdə yalnız XIV əsrdən başlayaraq ərəb və fars dillərində yazılmış şerlərlə yanaşı, Azərbaycan, Anadolu və İraq türkləri (turkmanları) arasında geniş yayılmış Əbdülqədir Marağinin Azərbaycan türkcəsində əruz vəzni əsasında yazılmış şerlər (tuyuqlar) Segah, Üşşaq və Nəva muğamlarına uyğun qələmə alınırdı.

Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixinin istedadlı tədqiqatçısı, professor Yaqub Babayev 2009-cu ildə dərc olunmuş «XIII-XIV əsrlər ana dilli lirik şeirimizin inkişaf yolu» elmi monoqrafiyasında Azərbayacan poeziyasının banisi böyük Nizaminin fars dilində yaratdığı ölməz əsərlərində milli ənənələrə əsaslanan dünyanın yenidən qurulması, dünyəvi dəyərlərin ədələtli bölüşdürülməsi, ictimai və şəxsi maraqların biri birinə uyğunlaşdırılması haqqında fəlsəfi məfkürənin davamçıları hesab olunan, öz şerlərini azərbaycan türkçəsində yazan Azərbaycan klassik ədəbiyyatında mühüm yer tutmuş Qazi Bürhanəddinin və İmadəddin Nəsiminin yaradıcılığı tədqid edilmişdir. 1344-cü ildə Qeysəriyə şəhərində doğulmuş, 17 il dövlət idarəçiliyi ilə məşğul olmuş dövlət xadimi, tanınmış sərkərdə və öz dövrünə görə yüksək savad almış şair-hökmdar Qazi Burhanəddin



məhəbbət və sufi təriqətlı fəlsəfi baxışlarını və düşüncələrini bizə üç dildə — azərbaycan türkcəsində, fars və ərəb dillərində yazdığı şeirləri ilə çatdırılmışdır.

Qazi Bürhanəddin Azərbaycan ədəbiyyatında, eləcə də ümumtürk ədəbiyyatında tuyuq şer janrında yazan ilk şairi hesab olunur.

Qazi Burhanəddinin müasiri, Azərbaycan ədəbiyyatının digər görkəmli nümayəndəsi — İmadəddin Nəsimi 1369-cu ildə Yaxın və Orta Şərqdə elm və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmış Şamaxıda anadan olmuş və orada ilk təhsilini almışdır.

Dövrün əsas elmləri hesab olunan məntiq, riyaziyyat və astronomiyanı, dərindən yiyələnmiş, habelə dinlərin tarixini əsaslarına yaxından bələd olmuş böyük mütəfəkkir-şair, İmadəddin Nəsimi də əsasən hürufi təriqətinin təbliği və yayılması ilə bağlı şeirləri üç dildə — Azərbaycan türkcəsində, ərəb və fars dillərində yazmışdır.

Mürəkkəb həyat yolu keçmiş lirik şair İmadəddin Nəsimi yaradıcılığa aşiqanə şeirlərlə başlamış, sonraldan isə dövrün siyasi, ictimai, əxlaqi mövzularında fəlsəfi əsərlər yaratmışdır.

Həmin monoqrafiyada İmadəddin Nəsiminin yaradıcılığı ilə bağlı Yaqub Babayev apardığı tədqiqatlara əsaslanaraq yazır: «Sənətkarın bədii irsi bütünlüklə əruz vəznindədir. O, ərəb poeziyasının vəzni olan əruzu çox məharətlə türk şeiri ilə uzlaşdıra bilmişdir. Yaradıcılığında aparıcı janr qəzəldir. Lakin klassik poeziyanın müxtəlif bədii forma və janrlarında uğurla qələmini sınamışdır: qəzəl, qəsidə, müstəzad, tərcibənd, tuyuğ, rübai, müləmmə, əlif-lam, məsnəvi və s. Nəsimi təkcə Azərbaycan ədəbiyyatında deyil, ümumiyyətlə, İslam şərqində ictimai-fəlsəfi şeirin ən böyük nümayəndələrindən sayılır».

İmadəddin Nəsimi, yazdığı müxtəlif bədii forma və janrlarında şerlərlə yanaşı Azərbaycan ədəbiyyatında ana dilində ilk dəfə müstəzad, mürəbbe və tərcibəndlər yazmışdır.

Əruz vəzninin bəhrlərini Azərbaycan şerinin xüsusiyyətlərinə uyğunlaşdırmaqla İmadəddin Nəsimi Azərbaycan dilinin təkmilləşməsi və inkişafında müstəsna rol oynamışdır.

Azərbaycan poeziyasında əruz vəznini tətbiq edən göstərilən şəxslərin ədəbi fəaliyəti nəticəsində fars və ərəb sözləri (ifadələri), xüsusən fars-türk alınma sözləri (ifadələri) ilə zənginləşən ana dilimiz Azərbaycan muğamının yaranması və inkişafında əsas şərtlərdən biri olmuşdur.

Bu kontekstə kamançanın etimologiyasının yaranması ehtimalı öz yerini tapır. Yəni, iki xalqın dilindən yaranmış kamança — farsın «kaman» və türkün «çal» sözlərinin birləşməsindən əmələ gələn hibrid-alınma sözüdür.

Qazi Burhanəddini və İmadəddin Nəsimini Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan Azərbaycan qəzəlin banisiləri adlandırmaqla, onların poeziyası bir çox Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin — Əbdülqədir Marağinin, Məhəmməd Füzuli, Kişvəri, Həbibi, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif və digər tanınmış şairlərin yaradıcılığına ciddi təsir göstərmişdir.

***Elxan JƏFƏROV.***

**Ardı var.**

**Şəkildə:** *Səfiəddin Urməvi.*